

**SƏLAHƏDDİN XƏLİLOV,**
Azərbaycan Respublikası
Milli Məclisinin deputatı

# MİLLİ DÖVLƏTÇİLİK TARİXİMİZİN HEYDƏR ƏLİYEV ZİRVƏSİ

*Milli azadlığa nail olmaq üçün milli oyanış, milli dirçəliş, milli ruhun canlanması lazımdır.*

*Heydər Əliyev.*

Çağdaş insanların dövlətçilik duyğusu daha çox dərəcədə ən yaxın dövlətçilik ənənələrindən qaynaqlanır. Əvvəla, insanların siyasi təfəkkürü və dövlətçilik şüuru ancaq sonuncu kəsilməz tarix mərhələsinin məhsulu kimi ortaya çıxır. Nə vaxtsa mövcud olmasına baxmayaraq, indiki nəsillə sosial-genetik əlaqələri qırılmış olan və ancaq tarixdə qalan dövlətlər çağdaş dövlətçilik ənənələrinin formalaşmasında iştirak etmir. İkincisi, əvvəlki dövlətlərdən heç biri milli dövlət olmayıb. O vaxt əsas göstərici ərazi olub və bu ərazi hüdudunda ancaq bir şəxsin – hökmdarın iradəsi həyata keçirilib. Dövlət milli varlığın timsalına çevrilməyib. Millət özü hələ formalaşmadığından milli ruh da dövlət miqyasında özünü təsdiqləyə bilməyib. Hökmdarın milli mənsubiyyəti də çox vaxt önəmli olmayıb. Və bu cür dövlətçilik neçə əsrlər boyu davam edib. Hərbi güc və iqtisadi güc kontekstində əsasən şəxsi iradələrin mübarizəsi gedib. Mədəni-mənəvi dəyərlər və hətta dil siyasi müstəvidə mühüm amil kimi çıxış edə bilməyib. O dövrdə siyasətə mənəvi amillərdən ancaq din müdaxilə edə bilib.

Belə bir şəraitdə dövlət sükanı arxasında milli iradə yox, şəxsi iradə dayanırdı ki, onun da strukturunda milli komponentin payı heç də həmişə yetərli olmayıb. Təsadüfi deyildir ki, bu ərazidəki imperiyaların başında çox vaxt azərbaycanlıların durmasına baxmayaraq, azərbaycançılıq mövqeyi nadir hallarda ön plana çəkilirdi. Daha doğrusu, belə bir mövqeyi biz az-çox dərəcədə Şah İsmayılın dövründə görürük. Sonrakı proseslər bu amilin tədricən azalmasının, dövlətin möhkəmləndirilməsi naminə və hətta bəzən ikinci dərəcəli səbəblərdən milli amillərin qurban verilməsinin şahidi oluruq.

Qeyd etmək lazımdır ki, dövlətçilik və milliliyin fərqli mahiyyəti və onların nisbi müstəqil inkişaf yolları keçməsi təkcə Azərbaycan üçün deyil, bütün ölkələr üçün səciyyəvidir. Nə qədim Misir, Babilistan, Midiya, nə Roma və Bizans imperiyaları milli dövlət deyildilər. Ərəb Xilafəti də, Osmanlı İmperiyası da milli dövlətçilikdən çox uzaq olublar.



İlk milli dövlətlər ancaq kapitalizm cəmiyyəti şəraitində, ölkə miqyasında iqtisadi həyat birliyinin təmin olunduğu və millətlərin formalaşdığı dövrdən yaranıb. Və bu yeni cəmiyyət ilk dəfə Avropada yarandığından ilk milli dövlətlər də Avropa dövlətləri olubdur. Avropalı filosofların özləri (məsələn, Y.Xabermas) belə hesab edirlər ki, milli dövlətdən kapitalist ictimai-iqtisadi münasibətlərinin formalaşdığı ilk dövrlərdən başlayaraq yox, məhz inqilabi yolla bu quruluşa adekvat olan yeni tipli dövlətlərin yaranması vaxtından danışmaq olar. Ən çox yayılmış fikrə görə, planetimizdə milli dövlətçilik tarixinin Böyük Fransa İnqilabından (1789) hesablanması daha məqsədəuyğundur.

Milli dövlətlərin yaranması prosesində növbəti tarixi mərhələ II Dünya Müharibəsindən sonra müstəmləkəçilikdən azad olmuş xalqların öz milli dövlətlərini qurması ilə bağlıdır. Üçüncü mərhələ isə SSRİ dağıldıqdan sonra keçmiş imperiyanın ərazisində yeni milli dövlətlərin yaranması ilə başlanır.

Bizcə, Avropadakı bəzi dövlətlərin artıq neçə əsrlik milli dövlətçilik tarixinə malik olması onların bugünkü yüksək inkişaf səviyyəsinin əsas amilidir.

Azərbaycanda kapitalist ictimai-iqtisadi münasibətləri XIX əsrin axırları, XX əsrin əvvəllərində formalaşıb ki, bunun da nəticəsində milli dövlətçilik üçün zəmin yaranmışdır. Və bu şans o vaxtkı milli-siyasi liderlərimizin siyasi əzmi sayəsində ilk müstəqil Azərbaycan Respublikasının yaradılması ilə reallaşdırılmışdır. Təəssüflər olsun ki, o vaxt bu müstəqilliyi qoruyub-saxlamaq mümkün olmamışdır, lakin bununla belə təməli 1918-ci ildə və əslində ondan da bir qədər əvvəl, hələ Rusiya imperiyasının daxilində ikən qoyulmuş milli dövlətçilik prosesi SSRİ İmperiyasının tərkibində də qismən qorunub saxlanmış və kəsilməz tarix olaraq yeni nəslə çatdırılmışdır.

Tarix göstərir ki, milli dövlətlərin yaranması boş yerdə həyata keçmir, kifayət qədər zəruri və qanunauyğun bir prosesdir. Milli-fəlsəfi fikrin, ictimai şüurun, milli ideologiyanın inkişafının müəyyən mərhələsində ona ilkin zəmin hazırlanmış olur. Azərbaycanda da belə olmuşdur. Milli dövlətçilik təfəkkürünün əsası hələ M.F.Axundov, Həsən bəy Zərdabi kimi böyük vətənpərvərlər tərəfindən qoyulmuş, XX əsrin əvvəllərində M.Ə.Sabir, Mirzə Cəlil, Ü.Hacıbəyov, Ömər Faiq Nemanzadə və s. bu kimi milli ziyalılar tərəfindən inkişaf etdirilmiş, daha sonra Əli bəy Hüseynzadə, Məmməd Əmin Rəsulzadə kimi ictimai-siyasi fikir sahiblərinin səyləri ilə əməli fəaliyyət müstəvisinə keçmişdir.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti qurularkən ölkəmizdə onlarca milli-siyasi xadim var idi ki, bu da qısa müddət ərzində milli dövlət quruculuğu sahəsində bir sıra böyük uğurlar qazanılmasına imkan verdi. 1918-1920-ci illərdə milli təfəkkür siyasi üstqurumun himayəsini qazanmaqla və dövlət quruculuğu praktikası ilə birləşməklə daha mütəşəkkil surətdə inkişaf etmişdir. Hətta sosialist dövrü bu milli oyanışın qarşısını almaqda aciz olmuşdur. Milli inkişaf prosesini dayandırmaq üçün kommunist ideologiyasının təbliğat mexanizmi yetərli olmadığından bu məqsədlə açıq repressiyalara əl atılmışdır. Lakin insanların məfkurəsini dəyişmək çətin olduğundan onları fiziki cəhətdən məhv et-

mək daha asan yol idi. Görünür, buna görə idi ki, ötən əsrin 30-cu illərində Azərbaycanda milli dövlətçilik məfkurəsinin bütün potensial daşıyıcılarını fiziki cəhətdən məhv etmək istiqamətində mütəşəkkil iş görülmüşdü. Lakin bütün ideoloji və fiziki repressiyalara baxmayaraq, Azərbaycan xalqı sosializm dövründə öz milli varlığını və milli dövlətçilik şüurunu qismən də olsa, qoruyub saxlamağa müvəffəq olmuşdur.

1991-ci ildə xalqımızın qarşısında duran vəzifə milli təfəkkürə əsaslanan müstəqil dövlət maşını qurmaqdan ibarət olmuşdur. Milli dövlətçilik təfəkkürü isə bütün əhalini əhatə etməsə də, milli ziyalılar üçün yeni bir şey deyildi.

Lakin təəssüflər olsun ki, o vaxt dövlət rəhbərliyində milli dövlətçilik məfkurəsindən məhrum olan adamlar təmsil olunurdu. Və bu, dövlətçiliyin millilik birləşməsinə imkan vermirdi. Daha sonra hakimiyyətə millətçilik şüarı ilə gələn qüvvələr isə dövlət quruculuğu təcrübəsindən məhrum olduqlarından millilik və dövlətçiliyin birləşdirilməsi yenə də mümkün olmadı.

Milli dövlətin qurulması, əsl milli istiqlal ancaq siyasi təcrübə ilə milli şüurun üzvi surətdə birləşməsi, milli dövlətçilik məfkurəsinin daşıyıcısı olan siyasi liderin hakimiyyətə gəlməsi sayəsində mümkün oldu. Məhz buna görə də belə hesab etmək olar ki, müasir milli dövlət quruculuğumuz 1993-cü ilin iyunundan – Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra başlanmışdır.

Həlledici məqamda dövlətin sükanı arxasında böyük siyasi təcrübəyə və milli dövlətçilik təfəkkürünə malik olan şəxsin dayanması, əlbəttə, çox önəmlidir. Lakin xalqın milli dövlətçilik yaddaşı silinmiş olsaydı, sosializm dövrü kəsilməz inkişafın qarşısını həqiqətən almış olsaydı, biz hər şeyi sıfırdan başlamaq məcburiyyətində qalsaydıq, qısa bir müddətdə milli dövlət quruculuğu sahəsində belə böyük uğurlar əldə etmək mümkün olardımı?

Bunun üçün həm də Azərbaycan xalqının özünün milli yetkinliyi tələb olunur. Əgər biz bu sahədə uğurlar qazanırıqsa burada A.Bakıxanovdan və M.F.Axundovdan üzü bəri bütün milli ziyalılarımızın rolu qeyd edilməlidir. Təsadüfi deyildir ki, Heydər Əliyev *Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətində* deyir: «XX əsrdə bizim qazandığımız uğurların, o cümlədən, müstəqil dövlət qurmaq əzmimizin köklərini uzaq və yaxın tariximizdə, xüsusilə, XIX əsrdə formalaşmış və təşəkkül tapmış qaynaqlarda axtarıb-tapmaq lazımdır». Bu gün Heydər Əliyev ona görə azərbaycançılığı Azərbaycan dövlətinin əsas ideyası hesab edir ki, neçə onilliklər ərzində əvvəlcə insanların şüurunda formalaşmış bu ideya onun şəxsi iradəsi ilə dövlət məfkurəsi səviyyəsinə yüksəldilə bilmişdir.

Ən önəmlisi odur ki, keçən əsrlərdə formalaşmış milli ideallar 1922-ci ildən başlayaraq dövlət ideologiyasından sıxışdırılıb çıxarılsa da, Azərbaycan xalqı onu öz milli yaddaşında qoruyub saxlamağa nail ola bilmişdir. Düzdür, 30-cu illərdə sarsıdıcı zərbə alan milli məfkurə aşkar təzahürlərdən imtina etmək məcburiyyətində qalmışdır. Və Kremlin istəkləri bəzi başqa sovet respublikalarında olduğu kimi bəlkə Azərbaycanda da həyata keçə bilərdi. Lakin xalqımız bu ideallları hər halda qoruyub saxlaya bildi və *bir kərə oyanmış milli şüur yatırdıla bilmədi*. XX əsrin 70-ci illərində Kremlin apardığı siyasət öz mahiyyətini saxlasa da, formasını dəyişmiş və repressiyaların yerini iqtisadi və mədəni asılılıq kursu tutmuşdu. Bəzi sovet sosialist respublikalarında müasirləşmənin yolu ancaq rus dilindən və rus mədəniyyətindən keçdiyinə görə milli məfkurə tamamilə sıxışdırılıb çıxarılmışdı. Təsadüfi deyildir ki, həmin ölkələr tarixin verdiyi fürsətlə müstəqil respublikalara çevrildikdən sonra da Moskvanın himayəsindən, rus dili və rus mədəniyyətindən ayrıla bilmirlər.

Lakin 70-ci illərdə Azərbaycana rəhbərlik edən Heydər Əliyev Kremlin siyasətinin mahiyyətini gözəl dərk edirdi və ölkənin müstəqil iqtisadi potensialının inkişafı və xalqın milli mənliyinin qorunub saxlanması istiqamətində məqsədyönlü fəaliyyət aparırdı. Daha doğrusu, bunun belə olduğunu biz ancaq indi dərk edirik. O vaxt isə bu fəaliyyət gizli şəkildə aparılırdı.

Biz indi-indi şahidi oluruq ki, dünyanın ən qabaqcıl ölkələrinin nümayəndələri Bakıdakı «Respublika» sarayına, «Gülüstan» sarayına, idman sağlamlıq komplekslərinə həsədlə baxırlar. Bakıda mötəbər dünya forumlarının, beynəlxalq konfransların, Avropa və dünya çempionatlarının keçirilməsi üçün maddi-texniki baza hələ o vaxt, sovet dövründə yaradılmışdır. Bəli, indi məlum olur ki, Bakı bütün göstəricilərə görə hələ 70-ci illərdən başlayaraq müstəqil dövlətin paytaxtı kimi formalaşmışdır. Görünür, Heydər Əliyev Bakı neftinin əvəzini qaytarmağı unutmurdu. Düzdür, Azərbaycan öz neftinin sahibi olmaq mövqeyini hələ 20-ci illərdə Nəriman Nərimanovun şəxsində bəyan etmişdi. Lakin bu mövqe N.Nərimanova da, Azərbaycana da baha başa gəlmişdir. 70-ci illərin təcrübəsi göstərdi ki, öz haqqını almağın başqa yolları da var; birbaşa yox, dolayısı yollar. Məhz verdiyinin əvəzində nə isə almaq yox, nefti verməklə bərabər, «ümumi qazan» prinsipindən çıxış edən kommunist ideologiyasından məharətlə istifadə edərək digər sahələrdə də Azərbaycanın iqtisadi inkişafını təmin etmək. Əlbəttə, sovet maraqları fonunda məhz Azərbaycana xidmət göstərmək xüsusi siyasi məharət və böyük risq tələb edirdi. Risqə gedən tərəf isə bunu nəyin naminə etdiyini gözəl bilirdi. Bu, milli maraqlara xidmətin ali nümunəsi idi.

70-ci illərdə bütövlükdə Sovetlər ölkəsində və Azərbaycanda gedən prosesləri müqayisəli şəkildə təhlil etdikdə görürük ki, ümumi durğunluq kontekstində hansısa bölgənin tərəqqiyə nail olması bu bölgəyə rəhbərlik edən şəxsin müstəsna rolundan başqa heç bir amillə izah edilə bilməz. İndiki dövrdə, sovet milli siyasətinin iç üzü ortaya çıxdıqdan sonra bəlli olur ki, SSRİ məkanında Azərbaycana başqalarına nisbətən ancaq daha pis bir aqibət hazırlana bilərdi. Bir türk respublikasının qabağa çıxması, sürətlə tərəqqi etməsi Mərkəzin yeritdiyi siyasətlə heç cür uyğunlaşmırdı. Deməli, kimsə mərkəzin siyasətindən, ümumi meyllərdən, qanunauyğunluqlardan kənara çıxırdı, kimsə tabunu pozurdu, kimsə axının əksinə üzürdü. Həm də dərin qatlarda, gözə görünmədən üzürdü.

Heydər Əliyevin *«mən o vaxt Azərbaycanın gələcəyi haqqında düşünürdüm»*, - sözlərindən sonra bu qənaətimiz daha da möhkəmlənmiş oldu. Məsələ burasındadır ki, dövrün həqiqətləri yalnız indi-indi, hadisələrin zahirdə görünməyən dərin qatları təhlil edilərkən aşkarlanır. 70-ci və 80-ci illərdə hadisələrin gedişini izləyərkən bu dövrdə əslində qeyri-aşkar şəkildə də olsa, müstəqil Azərbaycan üçün sosial-iqtisadi və mədəni-mənəvi potensial toplandığının şahidi oluruq. Belə düşünsək ki, o vaxt Heydər Əliyevin məhz Müstəqil Azərbaycan Respublikası yaratmaq planı var idi və apardığı quruculuq işləri də ona görə belə məqsədyönlü idi, bəlkə həqiqətə uyğun gəlməyə də bilər. Çünki o dövrün siyasi gerçəkliyi buna imkan vermirdi. Lakin hər halda Heydər Əliyevin o vaxt gördüyü işləri təhlil etdikdə, elə bil ki, hər şey məhz bu məqsədlə yaradılırdı.

Tamamilə mümkündür ki, bunları Heydər Əliyev intuitiv olaraq etmişdi. Hər halda o vaxt Heydər Əliyevin atdığı addımlar elə dəqiqdir ki, elə bil, yaxın gələcəkdə Azərbaycanın müstəqilləşəcəyini bilirdi və həyata keçirdiyi bütün quruculuq işləri sanki planlı surətdə Müstəqil Azərbaycan üçün görülürdü. Hər halda məhz 70-ci illərdə toplanmış iqtisadi və mədəni-mənəvi potensial müasir dövrdə Azərbaycanın müstəqil bir dövlət kimi özünü təsdiq etməsində mühüm rol oynadı. Heydər Əliyev özü bu barədə belə deyir: «Azərbaycanın bu gün müstəqil yaşaması üçün o illər böyük əsas yaratmışdır. Azərbaycanın iqtisadiyyatı inkişaf etmişdir. Azərbaycanda iqtisadi, sənaye potensialı yaranmışdır. Azərbaycanda yeni şəhərlər yaranmış, kəndlər, qəsəbələr abadlaşmış, insanların rifah halı xeyli yaxşılaşmışdır. Azərbaycanın böyük elmi yaranmış, respublikamızın milli mədəniyyəti yüksək səviyyələrə qalxmışdır. Azərbaycan öz mədəniyyəti, elmi, yüksək təhsili ilə böyük bəşəri keyfiyyətlərini bütün dünyaya nümayiş etdirə bilmişdir.» *(Heydər Əliyev. Müstəqillik yolu., B. 1997, səh. 71-72).*

Dövlətçilik ənənəsi insanlara milli özünütəsdiq imkanı verən milli dövlətə münasibətin tarixən qərarlaşmış və əsasən şüurlarda yaşayan, milli şüurun başlıca tərkib hissəsi olan mənəvi-tarixi bir prosesdir. Bu proses öz maddi təcəssümünü ayrı-ayrı konkret dövlət nümunələrində, dövlət idarəçiliyi formalarında tapmaqla yanaşı, həm də ümumiləşmiş rəmzi təzahürlərə ehtiyac hiss edir. Tək özü üçün yaşamayıb, xalqa, millətə bağlı olmaq, onun ağrı-acısını bölüşmək və nailiyyətlərinə sevinmək, ümummilli inkişaf naminə fəaliyyət göstərmək və öz şəxsi səadətini ümummilli səadət kontekstinə salmaq, millətlə və milli dövlətlə qaynayıb-qarışmaq fərddən vətəndaşa çevrilməyin mühüm şərtləridir. Hüquqi müstəvidə, formal olaraq vətəndaşlıq pasport almaqla rəsmiləşir, lakin məzmun müstəvisində vətəndaşlıq şüurda gedən proseslərin, milli dövlətçilik duyğularının təkamülünün, mədəni-mənəvi yetkinliyin nəticəsi kimi ortaya çıxır. Məzmunca vətəndaş kimi formalaşmamış insanların zahiri vətəndaşlığı dövlətçiliyin möhkəmləndirilməsinə xidmət etmir.

Azərbaycanda dövlətçilik ənənələrinin qədim tarixi vardır. Lakin bu tarix dəfələrlə qırılmış və yenidən bərpa olunmuşdur. Bu gün onun vahid, bütöv proses kimi təsəvvür olunması çox çətindir. Lakin Azərbaycan ərazisindəki qədim dövlətlər də, orta əsrlərdəki böyük imperiyalar da, müstəqil dövlət qurumları olan xanlıqlar da və nəhayət, Azərbaycan Xalq Cümhuriyyəti və hətta Azərbaycan Sovet Sosialist Respublikası da milli dövlətçiliyin ayrı-ayrı müstəqil məqamları və təzahürləri olmaqla yanaşı, həm də vahid, böyük bir tarixi prosesin hissələridir. Əlbəttə, təəssüf ki, bu böyük tarixi proses heç də bütöv, kəsilməz bir hadisə deyildir. Lakin ayrı-ayrı tarixi hadisələrin sadəcə toplusu da deyildir. Bu tarixi hadisələr, tarixin müxtəlif dövrlərində yaranmış və müəyyən müddət ərzində fəaliyyət göstərmiş müstəqil dövlət qurumları arasında bilavasitə tarixi varislik olmasa da, mədəni-mənəvi varislik mövcuddur ki, bunlar da dövlətçiliyin nisbi kəsilməz mənzərəsini yaratmağa və dövlətçilik ənənələrinin nə vaxtsa güclənən və nə vaxtsa arxa plana keçən, lakin həmişə real və ya virtual formada yaşamaqda davam edən bütöv proses kimi dəyərləndirilməsinə imkan verir.

Bu gün Azərbaycanda müstəqil dövlət quruculuğu prosesi uğurla davam etdirildiyi bir şəraitdə qarşıda həm də tarixin bərpa olunması, onun bütövlüyünün təmin olunması kimi məsul bir vəzifə də durur. Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsi, müstəqilliyin dönməzliyinin təmin olunması, dövlətçilik tariximizin müasir mərhələsinin kəsilməzliyinin təmin edilməsi kimi şərəfli bir vəzifəni yerinə yetirməklə məhdudlaşmayıb, həm də tarixi şüurumuzun bərpa olunması, dövlətçilik ənənələrinin qədim köklərinin üzə çıxarılması və müasir tariximizə qatılması sahəsində də məqsədyönlü iş aparır. Onun tərəfindən dəfələrlə nümayiş etdirilən tariximizə xüsusi diqqət və həssas münasibət sadəcə olaraq tarixin bir milli-mənəvi sərvət kimi qorunması təşəbbüsü deyildir. Bu xüsusi diqqət daha çox dərəcədə bugünkü milli dövlət quruculuğu işində, vətəndaşlıq duyğusunun, millətə, dövlətə, vətənə sevgi hissinin gücləndirilməsində tarixə söykənmək və gələcəyə gedən yolu daha möhkəm, daha dərin əsaslar üzərində salmaq istəyinin təzahürüdür.

Çox vaxt Heydər Əliyevin dövlət quruculuğu sahəsindəki əsas xidmətini sağlam qüvvələri səfərbər edərək güclü dövlət strukturları yaratmasında, müstəqilliyimizin, daxili ictimai-siyasi sabitliyin real təminatçısı olan dövlət aparatı qurmasında görürlər. Bəli, 1993-cü ildən Azərbaycanda bütün atributlara malik güclü dövlət yaradıcılığına başlandı. Dövlət quruculuğu və onun hüquqi təminatı prosesi bu gün də davam edir. Bu, həqiqətən də böyük nailiyyətdir. Lakin Heydər Əliyevin bu sahədəki daha böyük xidməti dərin qatda olduğundan çox vaxt diqqətdən kənarda qalır. Bu, Azərbaycanda dövlət quruculuğu ilə yanaşı dövlətçiliyin inkişafı sahəsindəki xidmətlərdir.

Əlbəttə, Azərbaycanda dövlətçiliyin inkişafı ən çox onun ərazisində dövlət qurumlarının və siyasi liderlərin, böyük sərkərdələrin fəaliyyət göstərdiyi dövrlərlə bağlıdır. Və belə dövrlər Azərbaycan tarixində az olmamışdır: «Cavanşir və Babək kimi sərkərdələrin qəhrəmanlıqları böyük vətənpərvərlik məktəbinə

çevrilmiş, vətənin bütövlüyü xalqın birliyinin təcəssümü olmuşdur. Məhəmməd Cahan Pəhləvanın, Qızıl Arslanın, Uzun Həsənin, Şah İsmayıl Xətainin və başqa dövlət xadimlərimizin həyat və fəaliyyəti xalqın vətən sevgisi və dövlətçilik hissini daha da inkişaf etdirmiş, onu həyatın ən vacib, ən ümdə məqsədinə çevirmişdir» (*Heydər Əliyev*).

Azərbaycan Rusiyanın tərkibində olarkən etnik-milli hiss əsasən qorunub saxlansa da, dövlətçilik duyğusu və təfəkkürü xeyli zəifləmişdir. XX əsrin əvvəllərində kapitalist ictimai-iqtisadi münasibətlərinin yaranması ilə əlaqədar milli özünüdərk istiqamətində böyük addımlar atılsa da, milli dövlətimizin fəaliyyət dövrü çox qısa olduğundan dövlətçilik şüuru formalaşmağa macal tapmamışdır. Əsrin axırında yenidən müstəqillik əldə etdikdən sonra ilkin olaraq yenə də etnik-milli şüurun inkişafı müşahidə olunur. (Əslində bu inkişaf ən çox əsrin əvvəllərinə, Ə.Hüseynzadə, M.Rəsulzadə və s.-in dünyagörüşünə və milli baxışlarına qayıdış kimi özünü göstərir.) Dövlətçilik ənənələri isə 180 illik fasilə ərzində xeyli dərəcədə zəiflədiyindən, siyasi özünüdərk və dövlətçilik şüurunun bərpası daha çətin və ləng həyata keçir. Əksinə, müvazinət pozulduğundan vətəndaşlıq hissləri, dövlətçilik duyğuları xeyli dərəcədə zəif ikən etnik-milli hisslərin sürətli inkişafı və hətta hansı isə qüvvələr tərəfindən kortəbii və ya məqsədyönlü surətdə qızışdırılması ölkədə stabilliyin pozulması üçün daha bir səbəb ola bilər.

Cəmiyyətdəki və şüurlardakı bu yeni inkişaf meyllərinin nisbətini vaxtında və düzgün qiymətləndirmək, tarazlığın pozulmasının qarşısını almaq üçün bu prosesləri qabaqcadan dərk etmək tələb olunur. Lakin dünyanın ən böyük sosioloqlarının və siyasətşünaslarının da bu qəbildən olan proseslərin analizini vermədiyi bir şəraitdə onları irəlicədən kim proqnozlaşdıra bilərdi? Və ya elm adamları, filosoflar bu məsələləri tədqiq edənə qədər, kim real ictimai prosesləri dayandırıb saxlaya bilərdi ki, qoy hələ alimlər öz sözünü desin, sonra həyat davam etsin. İkinci, təbii ki, mümkün deyil. Bəs birinci necə?

1993-cü ildən sonra bu istiqamətdə hadisələrin axarına diqqət yetirəndə onun məqsədyönlü surətdə başqa bir məcraya yönəldildiyinin şahidi oluruq. Əsas kurs insanlarda etnik-milli duyğularla yanaşı, ictimai-siyasi özünüdərk duyğusunun, vətəndaşlıq duyğusunun formalaşdırılmasına yönəldilir. «Xalqın, Vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir» *(Heydər Əliyev)*, – ideyası bu sahədəki fəaliyyətin istiqamətini müəyyən edir.

Dövlət işini duyğular, hisslər səviyyəsində, ictimai şüur səviyyəsində ümumxalq işinə çevirmək, bununla da bizə xaricdən ancaq hüquqi-siyasi akt kimi təklif olunan demokratikləşdirmə prosesinə və bu aspektdəki hüquqi islahatlara real milli-mənəvi və idraki-psixoloji zəmin yaratmaq istiqamətində böyük işlər görülür. Dövlət işi ümumxalq işinə çevrilir. «Bir var dövlət işi ilə məşğul olan adamlar, bir də var adi vətəndaş. Adi vətəndaş da, əgər həqiqətən də vətəndaşdırsa, deməli öz vətəninə, burada gedən proseslərə, dövlətinə biganə qala bilməz» (*Heydər Əliyev*).



Müstəqillik heç də bəzilərinin başa düşdüyü kimi ancaq siyasi müstəqillikdən, sərhədlərin toxunulmazlığından ibarət deyil. Bura həm də iqtisadi müstəqillik, milli maraqlara xidmət etmək müstəqilliyi daxildir. Elə ölkələr vardır ki, hüquqi və siyasi baxımdan suverenliyi elan olunsa da, real müstəqillikdən uzaqdır. Buna çox misallar gətirmək olar. Amma ən yaxın olan digər MDB ölkələridir; Gürcüstandır, Ermənistandır, Tacikistandır və s. Bir qarış belə torpağını itirməmiş, əksinə, qonşu dövlətin ərazisini də zəbt etmiş Ermənistan sözün həqiqi mənasında müstəqillik əldə edə bilməmişdir. Ərazisində başqa bir dövlətin qoşunları yerləşdirilmiş, sərhədləri başqalarının nəzarəti altında olan Ermənistan hələ də Moskvanın siyasi təsirindən xilas ola bilməmişdir və öz milli maraqlarına uyğun addımlar atmaq imkanından məhrumdur. Elə Azərbaycanla müharibə vəziyyəti də onun milli iqtisadi maraqlarına ziddir... Habelə iqtisadi cəhətdən özünü dolandırmaq iqtidarında olmayıb, xarici yardımlardan asılı vəziyyətdədir. Məhz hərbi bazaya və siyasi alətə çevrildiyi və təhlükəsizliyə təminat verə bilmədiyindən İpək Yolunun bərpası, iri miqyaslı neft-qaz kəmərlərinin çəkilişi və s. bu kimi beynəlxalq layihələrdə də iştirak edə bilmir.

Belə misallar çox göstərmək olar. Azərbaycan isə Heydər Əliyevin rəhbərliyi ilə qısa bir zamanda siyasi müstəqilliklə yanaşı həm iqtisadi, həm də mədəni-mənəvi müstəqillik əldə etmiş və bu istiqamətdəki proseslərin dönməzliyini də təmin edə bilmişdir.

Azərbaycanın öz maraqlarına uyğun işlənib-hazırlanmış müstəqil siyasi kursu vardır. İstər böyük və ya kiçik, uzaq və ya qonşu dövlətlərlə, istərsə də iqtisadi və mədəni-mənəvi sahələrdəki tərəf-müqabillərlə münasibətdə Azərbaycan ilk növbədə öz milli maraqlarından çıxış edir. Həm də bu maraqların rəhbər tutulması elə incə siyasətlə həyata keçirilməlidir ki, böyük dövlətlərin və qonşuların maraqları ilə birbaşa ziddiyyət yaranmasın.

Heydər Əliyev siyasəti iqtisadiyyatdan, mədəniyyətdən, milli-mənəvi dəyərlərdən təcrid etmir. Onun özünün bir şəxsiyyət kimi hərtərəfli hazırlıqlı olması, bütün sahələrdə yüksək intellektual səviyyəyə malik olması xarici siyasət kursunun da kompleks şəkildə həyata keçirilməsinə imkan verir.

Əgər Heydər Əliyevin çıxışlarını diqqətlə izləsək görərik ki, onun ən böyük nailiyyət hesab etdiyi hadisə Azərbaycanın müstəqilliyi, ən çox vurğuladığı və diqqət verdiyi vəzifə isə müstəqilliyin dönməzliyinin təmin edilməsidir.

Lakin dövlət quruculuğu Heydər Əliyevin fəaliyyət strategiyasında özlüyündə son məqsəd deyil. Dövlətin möhkəmləndirilməsi ona görə bir nömrəli vəzifədir ki, o bizim müstəqil iqtisadi siyasətimizin və milli mənəviyyatımızın təminatçısı ola bilsin. "Əgər Respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz." (*Heydər Əliyev*). İqtisadiyyatın inkişafı, adamların rifah halının yaxşılaşdırılması həmişə Heydər Əliyevin diqqət mərkəzində olmuşdur: "Biz həm ölkəmizin suverenliyini, ərazi bütövlüyünü qorumaq üçün çalışırıq, həm də vətəndaşlarımızın, xalqımızın ri-

fahını yaxşılaşdırmağa, yaranmış vəziyyətdə müxtəlif və yeni formalardan istifadə edərək iqtisadiyyatı inkişaf etdirməyə çalışırıq". Heydər Əliyev fikrini bununla bitirmir və məsələyə tam dialektik bir mövqedən yanaşmaqla, sosial-iqtisadi proqramların həyata keçirilməsinin də öz növbəsində, dövlətçiliyin möhkəmləndirilməsi, ictimai-siyasi sabitliyin bərqərar olması, mədəni-mənəvi həyatın təşəkkülü üçün bir şərt olduğunu qeyd edir: İqtisadiyyat son məqsəd kimi yox, şərt kimi, təməl kimi, vasitə kimi götürülür. Siyasi və mədəni-məəvi aspektdəki nailiyyətlərin də çox vaxt iqtisadi təmələ söykəndiyi vurğulanır: "*İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir.*"

Bəli, iqtisadiyyatın inkişafı da dövlətin möhkəmləndirilməsi kimi olduqca vacib şərtdir. Lakin, nə iqtisadiyyat, adamların güzəranı, rifah halı, nə də dövlət quruculuğu müstəqillik yolunun son məqsədi ola bilməz. Əgər xalq dövlət qurur, iqtisadiyyatı inkişaf etdirir, sərhədləri möhkəmləndirirsə və bu sərhədlər daxilində özünə yad bir mənəviyyat saxlayırsa, bu hələ müstəqillik deyil. Mənəvi buxovlardan azad olmayan, öz milli mənliyini dərk etməyən xalq azad xalq sayıla bilməz.

Heydər Əliyevi dinləyərkən, onun əsərlərini oxuyub dərindən təhlil edərkən bir daha əmin olursan ki, müstəqilliyin ali məqsədi milli-mədəni və mənəvi dəyərlərin bərpa olunması, xalqın özünü dərk etməsi, öz mənliyinin sahibi olmasıdır.

Heydər Əliyev nədən başlayıb nəyə doğru getmək lazım olduğunu çox gözəl bilir. Onun yolu təkcə siyasi müstəvidə deyil, həm də iqtisadi və mədəni-mənəvi müstəvidə istiqlal yoludur.

Çağdaş həyat ancaq öz daxili məntiqi ilə yaşaya bilməz. Tarixin öz makrostrukturu, yalnız böyük miqyaslarda üzə çıxan qanunauyğunluğu vardır ki, bunlar heç vaxt nəzərdən qaçırılmamalıdır. Vaxtilə baş vermiş hadisələr heç də tamamilə keçmişdə qalmayaraq, müasir həyatın strukturuna bir rüşeym və bir fon kimi daxil olur və onu istiqamətləndirir. "Tarix heç nəyi silmir", "tariximiz bizim üçün dərs olmalıdır", – deyir Heydər Əliyev. Lakin o, bununla heç də yalnız tarixi öyrənməyi və hafizələrdə yaşatmağı nəzərdə tutmur. O, tarixin həm də məhz çağdaş proseslərin iştrakçısı kimi nəzərə alınmasını tövsiyə edir, yeni dövrün tarixini yaradarkən də, onu həmişə böyük tarixin kontekstinə uyğunlaşdırmağa çalışır.